# Heydər Əliyev!

## Ermәniləri təşvişə salan ad...

## Onlar bu addan indi də qorxurlar



## Bir ada yüz illik erməni hücumu necə baş verib?

*Cavi Dan*

Deyirlər, cəngəllikdə yaşayan vəhşi heyvanların ən yırtıcısı belə parçaladığı şikarının bətnindən çıxmış balasını diri görəndə onu öz balası kimi yalayıb təmizləyir, öldürmək ağlından keçmir. Bu barədə çəkilmiş sənədli filmlər də var. Bircə kaftar sürüsü bu qaydadan kənara çıxır, onlar fürsət tapan kimi cəngəlliyin aslanlarının, pələnglərinin belə balalarına hücum edirlər. Sanki Xocalıya hücum etmiş erməni terrorçularıdır. Erməni demişkən... bu adla tanınanlar yalnız Ermənistan adlı ərazidə yaşamırlar ki. Ermənilik bir millət mənsubiyyəti olmaqdan çoxdan çıxıb, bu artıq bir xaraktersiz insan tipidir, xüsusi bir iblisanə cəhətləri olmaqdır, qısası, kaftarlıqdır, təklikdə də, sürüylə də gücü çatmayacaqlarının balasına pusqu qurub hücum etmək dərəcədə ruhunu murdarlamaqdır.

Əksəriyyətin əsasən əhəmiyyət vermədiyi, "it hürər, karvan keçər" deyə qarışıb cavablandırmağı da artıq və lüzumsuz bildiyi bir məsələ var. Demək olar ki, hər gün hamımız sosial şəbəkələrin hansındasa heç olmasa bir dəfə rast gəlirik həmin məsələyə. Nədir bu? Prezidentin oğlu, Heydər Əliyevə qarşı deyilən, yazılan və çəkilən hədyanlar. Adətən bunları ölkədən xaricdə olanlar edir. Özlərini iqtidara müxalif olan zümrə kimi tanıtmağa, "müxalifət" adını daşımağa iddialıdır ki, çalışsalar da, alınmır. İşləri-gücləri sosial şəbəkələrdə "ermənilik" etməkdir. **Nədir ermənilik? Ermənilərin Azərbaycana qarşı etdiyi nə varsa onları etmək - dövlətçiliyimizi sarsılmış görmək, istəmək, ölkədəki ən kiçik anlaşılmazlıqdan belə böyük ajiotaj düzəltməyə cəhdlə məsələlərin məğzindən xəbəri olmayan sadə insanların şüuraltına "sarı simə toxunmaq" effekti ilə davranmaq, çaxnaşmalara çağırışlar etmək, Prezident ailəsi haqqında, xüsusən də övladları barəsində ən iyrənc şəkildə danışmaq, yazmaq...** və arxayın olmaq ki, kimsə mənə heç nə edə bilməyəcək. Çünki əsl himayədarlarımı dəqiq tanıyan yoxdur, özümü də adam yerinə qoyan.

Nədir bu gənc Heydər Əliyevə qarşı olan nifrət hissi? Necə doğulub o hiss, nədən yaranıb, niyə bitməktükənmək bilmir, sədd-sərhəd tanımır?

Axı bu 24 yaşlı oğlan dünyanın da, ölkənin də ən sakit gənclərindən biridir, sadə davranışı, qalmaqalsız həyat tərzi, ağıllı baxışları, təmtəraqsız görünüşü ilə niyə bu qədər iyrənc hücumların hədəfi olsun ki?

**Bəlkə səbəb onun daşıdığı addır? Heydər Əliyev!**

Bir düşünün, fərz edək ki, Prezident İlham Əliyevin oğlunun adı Heydər deyil, hər hansı bir digər Azərbaycan adıdır. Eyni münasibəti təsəvvür etmək olurmu? Olmur. Demək, bütün hücumlar da məhz bu adadır, əslində. Keçən əsrin ortalarından sonra tanınmağa, parlamağa başlayan bu ad və soyad hər zaman ermənilərin və ermənikimilərin hədəfində olmayıbmı? İstər SSRİ rəhbərlərindən biri olduğu dövrlərdə, istər Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Heydər Əliyev daim erməni hücumuna məruz qalmayıbmı? **Taleyin qəribə mistikasına bax ki, hələ ötən əsrin ilk illərində, ermənilərin Zəngəzur mahalına hücumu zamanı doğma yer-yurdlarından didərgin düşməyə məcbur qalan azərbaycanlılar arasında Heydər Əlirza oğlu Əliyevin anası İzzət xanım da vardı və İzzət xanımın əziz-xələf, 23 yaşlı Heydər adlı qardaşının həyatını erməni gülləsi yarıda kəsmişdi. Sonra dünyaya gələcək övladına həmin cavan Heydərin adını verəcəkdi İzzət xanım.** O övlad da böyüyəcəkdi, o qədər böyüyəcəkdi ki, adı dünya boyda olacaqdı, özü də bütün Azərbaycanın övladına çevriləcəkdi. Oğul olacaqdı Vətənə. Oğul bəxş edəcəkdi sonra Azərbaycana - İlham adlı. Ali Baş Komandan statuslu. Qarabağ xilaskarı missiyalı...

Ermənilərsə əl çəkməyəcəkdi bu ada hücum etməkdən... yüzillik nifrətlərini gənc Heydərə yönəldəcəkdilər. Lakin bir şeyi unudacaqdılar. İndiki Azərbaycan nə ötən əsrin əvvəllərindəki gücsüz-çarəsiz durumda olan ölkədir, nə də ötən əsrin sonlarındakı, 20 faiz torpağı işğal altında, bir milyondan çox insanı qaçqın vəziyyətdə olan dövlət. Bu günün Azərbaycanı da, bu günün Azərbaycan xalqı da əvvəlki deyil. Biz indi kimin kim olduğunu çox gözəl bilirik. Erməniləri isə tanımaqda mislimiz-bərabərimiz yoxdur...